# Qafqazı sevən şairin izi ilə

## Lermontovun ev-muzeyində Mirzə Fətəlinin portreti, saz və tar saxlanılır



**Pyatiqorsk - füsunkar təbiəti, təmiz dağ havası və unikal tarixi məkanları ilə turistləri heyran etməkdədir. Turistlər hesab edirlər ki, məşhur adamların yaşadığı və işlədiyi bu şəhərə baş çəkməklə, uzaq tarixin epoxasına nüfuz edirlər. Lermontovun ev muzeyi ən çox ziyarət edilən məşhur yerlərdən biridir.**



Şəhərdə böyükdən kiçiyə qədər kimdən "Lermontovun ev muzeyinə necə getmək olar?" deyə soruşanda, dərhal yolu göstərməyə çalışırlar. Bu şəhərdə Lermontovu hamı tanıyır. Çünki Pyatiqorsk şairin həyatının təkcə bir hissəsi olmayıb, həm də ölümü də çox sevdiyi bu şəhərlə bağlı olub.

Pyatiqorskda təkcə Lermontovun evi milyonlarla turisti cəlb etmir. Muzey məhəlləsi böyük bir ərazini əhatə etməkl,ə özünün sakit küçələri, qədim şəhərin ruhunu yaşadan ab-havası ilə seçilir. Yerli sakinlər deyirlər ki, burada təbiətin gözəlliyinə Lermontov poeziyasının ruhu qarışıb.

### LERMONTOV QAFQAZDA

Şairin Qafqaza bağlılığının isə maraqlı tarixçəsi var Belə ki, Lermontov ilk dəfə 1818-ci ildə, daha sonra 1820-ci ildə Qafqaza gəlib. Nənəsi Yelizaveta Alekseyevna Arseneva xəstə nəvəsini Tarxandan Qafqazın möcüzəli sularına müalicə məqsədilə gətirib. Qafqaz onun uşaq yaddaşında dərin iz buraxıb. Xüsusən 1825-ci ildə, 11 yaşı olanda Qafqaza qayıdışı onun həyatında unudulmaz anlara çevrilib. O, haqqında çox oxuduğu, böyüklərin nağıllarından eşitdiyi bu sirli diyarın füsunkar təbiətinə, dağlıların adət-ənənəsinə heyran olub. Müşahidələri onu aldatmayıb. O, buradakı müalicəvi sularda şəfa tapıb, yerli sakinlərin dəyərlərini, igidliklərini və sədaqətini görüb. "Mən indi müalicəvi sulardayam. Hər gün sulardan içir və vannalar qəbul edirəm. Ümumiyyətlə, tamamilə ördək kimi yaşayıram. Hər gün dağlarda gəzirəm. Bunlar mənim ayaqlarımı möhkəmləndirir. Nə istəyirəmsə, onu edirəm. Gəzirəm, nə isti, nə yağış mənə mane ola bilir. Təbiətin gözəlliyi və bu yerlərin insanları məni heyran edib" - deyə Lermontov 1838-ci ildə nənəsinə yazırdı. Məhz bu təəssüratları onun erkən romantik əsərləri içərisində Qafqaza həsr etdiyi şeir və poemaların yer almasına səbəb olub. "Çərkəzlər", "Qafqaz əsiri", "İsmayıl bəy", "Hacı Abrek", "Bastunci aulu" və s. əsərləri Pyatiqorskda Maşuk və Beştau dağlarının arasındakı aullarda yazılıb. Bu əsərlərin hər birində o, Qafqaz xalqlarının həyatını, onların adət-ənənələrini əks etdirib. İndi təkcə yerli sakinlər deyil, Rusiyanın hər yerindən, keçmiş SSRİ məkanından insanlar gələrək həmin yerləri böyük məhəbbətlə gəzirlər.



1837-ci ildə şair yenidən Pyatiqorska gələndə, burada gördüyü dəyişikliklərdən təəccüblənib. Şəhərin təbiəti yaradıcılığına ilham verib. Dağlardakı su mənbələrində Belinski ilə rastlaşıb.

### LERMONTOVUN ADINA İLK MUZEY

1841-ci ildə Lermontov öz qohumları və dostu - kapitan Stolipinlə Qafqaza gəlib. Burada Maşuk dağının ən hündür yerində qamış damlı ev kirayələyib, hündürlükdən Qafqaz dağlarının füsunkar gözəlliyini seyr ediblər. "Mən dünən Pyatiqorska gəldim. Şəhər kənarında, Maşuk dağının ən yüksək yerində məşhur kirayələdim" - deyə Lermontov nənəsinə yazırdı. Şair Pyatiqorska sonuncu gəlişində dostları ilə Maşuk dağının ətəyində piknik təşkil edib.

Şair bu gözəlliyə laqeyd qalmayıb, ilk baxışdan bu yerləri sevməyə başlayıb. Öz otağındakı açıq pəncərənin ağzında qoyulan stol arxasında oturaraq, təbiətdən ilham alaraq şeirlər yazıb. Burada şairin rus klassikasının incisi sayılan məşhur əsərləri yaranıb. Məhz bu evdə "Zəmanəmizin qəhrəmanı" və "Mtsırı" əsərləri yazılıb. Lermontov bu mülkü 4 aylığa kirayəyə götürsə də, cəmi iki ay yaşaya bilib. Ancaq tale öz işini görüb. "Sevirəm Qafqazı mən"- yazan şairin ömrü Martınovla mübahisəsi nəticəsində qırılıb. Ölüm dueli istedadlı şairin həyatını yarıda qoyub.

Lermontovun ev muzeyi şairin adına yaradılan ilk muzeydir. Pyatiqorsk sakinləri də "Lermontovun yaşadığı bütün şəhərlərdə ev muzeyinin olmasına baxmayaraq, şairin ilk muzeyi məhz bu şəhərdə yaranıb"- deyə qürurla bildirirlər. Ancaq həmin mülkün şairin ev-muzeyinə çevrilməsi o qədər də asan olmayıb. Şairin yaşadığı mülkün bir neçə sahibi olub. 1884-cü ildə Aleksandr Ostrovski Lermontovun Pyatiqorskda yaşadığı evə memorial lövhə vurulması təşəbbüsü ilə çıxış edib. Şairə məhəbbətini ifadə edən Aleksey Tolstoy və Sergey Yesenin bu yeri ziyarətə gəliblər. Yalnız 1912-ci ildə şəhər hakimiyyəti malikanəni alıb. Nəhayət 1973-cü ildə malikanəni M.Y.Lermontovun xatirəsinə Dövlət Qoruq Muzeyi adlandırıblar.

Hazırda 2,5 min kv. metr sahəsi olan 4 qədim malikanədə muzeyin bir neçə şöbəsi yerləşir. Qoruq muzey 4 hissədən ibarətdir. Ədəbi hissəsi general Verzilinin evində yaradılıb. 1908-ci ildə burada ədəbi ekspozisiya açılıb.

İkinci mülk Lermontovun evidir. Şairin ev-muzeyi çox da böyük olmayan gildən tikilmiş, damı qamışla örtülü evdir.

Buradakı kolleksiyalara çoxsaylı unikal eksponatlar, o cümlədən şairin şəxsi əşyaları daxildir. **Muzey bələdçisi Nadejda Vasilyevnanın** dediyinə görə, muzeyin ilk eksponatları şair üçün Peterburqdan gətirilən stol və kreslo olub. Stolun üzərində şüşə altında Lermontovun əlyazmaları qorunur. Otaqlarda sadə, qədim mebel, divarlarda silah və rəsm əsərləri asılıb. Köhnə bufetdə Lermontovun ailə yadigarları - samovar, fincan, naxışlı süfrə, sini qablar yer alıb.

Eksponatlar arasında görkəmli Azərbaycan dramaturqu Mirzə Fətəli Axundovun portreti diqqəti çəkir. Rus şairi Azərbaycanın maarifpərvər insanı Mirzə Fətəli ilə tanış olub. Mirzə Fətəli Mixail Yuryeviç Lermontovdan 2 il böyük olsa da, onlar tez-tez ünsiyyətdə olurmuşlar. M.F.Axundov M.Lermontova Azərbaycan dilini öyrədib.



Muzeyin eksponatları içərisində tar, saz və digər musiqi alətlərinin olması da böyük şairin Qafqaz mədəniyyəti ilə yaxından tanışlığının nümunələridir.

"Mixail Yuryeviç Lermontov təsviri incəsənətdə" adlanan şöbədə isə əsasən şairin qafqazlıların həyatına həsr etdiyi, yağlı boya ilə çəkdiyi əsərlər sərgilənib.

Bələdçinin dediyinə görə, muzeyin divarlarını bəzəyən rəsm əsərlərindən çoxu Lermontovun əl işlərdir. Və şairin bir çox işləri kimi bu əsərlərdə də imzası yoxdur. "Əsərlər Lermontova məxsusdur və 1841-ci ilə - şairin dueldəki ölümünə qədər çəkilib. 1963-cü ildə muzey ekspozisiyalarını yaradan zaman bu əsərlər "Lermontovun fırçasından çıxan əsərlər" kimi muzeyə təqdim olunub. 1966-cı ildə həmin əsərləri yenidən bərpa edərək Lermontov dövrünə uyğunlaşdırıblar. Lermontovun rəssamlıq əsərlərinin sayı az olmayıb. Belə ki, 13 portret, yağlı boya ilə qrafik rəsmlər çəkib".

Həyətdəki dördüncü ev bəstəkar A.Alyabyevin evidir. Şairin zəif yerlərindən biri də atlara məhəbbəti olub. O, Pyatiqorskda çərkəz cinsindən olan at alıb və dağ yamaclarında bu atla gəzib. Muzeyin həyətində şairin atları saxlanan tövlə də turistlərə göstərilir. "Əgər Maşukda tapança gülləsi onun həyatına son qoymasaydı, Lermontov daha çox incilər yarada bilərdi"- deyə bələdçi təəssüflə danışır: "1841-ci ilin 15 iyulunda bu evə dueldə həlak olan şairin cəsədini gətiriblər. Bir gün sonra dəfn mərasimi təşkil olunub. Şairin məzarı 8 ay Pyatiqorskda qalıb. 1842-ci ildə nənəsinin təkidi ilə şairin cəsədinin külü doğulduğu Tarxan kəndinə aparılıb və ailə qəbiristanlığında, anasının yanında dəfn olunub".

### ƏDƏBİYYATA SEVGİ NÜMUNƏSİ

1964-67-ci illərdə muzeydə yenidən bərpa işləri aparılıb və "Lermontovun evi" ilkin görkəminə qaytarılıb. Hər il muzeyi 200 mindən çox adam ziyarət edir. Muzeyin fondunda 58 min 500 eksponat qorunur. Qiymətli eksponatlar içərisində "Lermontov musiqidə not kolleksiyaları" şairin öz əli ilə çəkdiyi əsərlərinə illüstrasiyalar, eyni zamanda Lermontov ensiklopediyasının arxivi və Qafqaz üzrə nadir kitabxana yer tutur. Bələdçinin dediyinə görə, muzeyə dünyanın hər yerindən turistlər gəlir. Muzey çərşənbə və istirahət günləri 10.00-dan 18.00-a qədər işləyir. Muzeyə daxil olmaq üçün 200 rubl, məktəbli və tələbələrə isə 100 rubl ödəmək lazım gəlir: "İnanmıram ki, Pyatiqorska və ya yaxın Kislovodska, Yessentukiyə kimsə istirahətə gəlsin, amma bu muzeyə baş çəkməsin. Bu bölgəyə gələnlər Lermontovun ev muzeyini ziyarət etməyi özlərinə borc bilirlər. Onlar təkcə şairin yaradıcılığına olan məhəbbətlərini ifadə etmirlər, ümumən ədəbiyyata, sənətə, poeziyaya olan sevgilərini nümayiş etdirirlər. Lermontov poeziyanın, böyük sənətin özüdür"- deyə N. Vasilyevna muzeyi ziyarət edənlərə təşəkkürünü bildirir: "Muzeydə tez-tez "Lermontovun izi ilə" adlı tədbirlər keçirilir. Nə qədər poeziya və ədəbiyyat yaşayırsa, Lermontova sevgi də o qədər yaşayacaq. Bu muzeyin otaqları həmişə dolub-boşalacaq. Gələnlər böyük şairin həyatı, yaradıcılığı ilə yaxından tanış olacaq, poeziyanı, ədəbiyyatı yenidən onun timsalında sevəcəklər..."



**Təranə Məhərrəmova**
*Pyatiqorsk-Bakı*